səs

www.sesqazeti.az

facebook Ses Media Holding

20 dekabr 2017-ci il

# Azərbaycanın gələcəyi gənclərdən asılıdır





***Dünən Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyevanın II kurs tələbələri ilə görüşü olub. Akt zalında baş tutan görüşdə rektor bundan əvvəl I kurs tələbələri ilə görüşdüyünü və onlarla səmimi söhbət etdiyini bildirib. O, bu görüşlərin universitet rəhbərliyi ilə tələbə-gənclər arasında körpü yaradılmasında mühüm rol oynadığını qeyd edib. N.Əliyeva bu gün BSU-da istedad və qabiliyyətləri ilə fərqlənən xeyli sayda gəncin olduğunu diqqətə çatdırıb. O, Azərbaycanın gələcəyinin və dövlətçiliyimizin bir çox uğurlarının gənclərdən asılı olduğunu vurğulayıb.***

N.Əliyeva universitetdə tələbələrin inkişafı, uğurlu gələcəyi üçün hər cür şərait yaradıldığını deyib. O, BSU-nun dünyanın bir sıra aparıcı universitetləri ilə sıx əlaqəsinin olduğunu, beynəlxalq layihələr əsasında tələbə-müəllim mübadiləsinin həyata keçirildiyini qeyd edib: "Təkcə Rusiyanın 27 universiteti ilə sıx əlaqələrimiz vardır. Bundan əlavə, Türkiyə, Bolqarıstan, Polşa, Çexiya, Ukrayna, Belarus və s. dövlətlərin ali təhsil müəssisələri ilə yaxın münasibətlərimiz mövcuddur".

Rektor universitetdə keçirilən bütün tədbirlərin başlıca məqsədinin tələbələrin intellektual və mənəvi baxımdan inkişafına hədəflədiyini nəzərə çatdırıb: "İndiki dövrdə gənclərimizin lazımi səviyyədə təhsil alması, mənəvi və intellektual baxımdan inkişafı üçün hər cür şərait vardır". Bizim dövrümüzdə hər şey Moskvada müəyyən olunurdu. Heç kəs Kremlin iradəsindən çıxa bilməzdi. Amma indi öz milli dövlətimiz, öz konstitusiyamız və öz qanunlarımız vardır. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi gənclər siyasəti siz tələbələrin hərtərəfli şəxsiyyət kimi formalaşması üçün işıqlı yollar müəyyən edib. Siz bu gün hüquqi-demokratik və sosial ədalətə söykənən bir cəmiyyətdə yaşayırsınız. 250 illik dövlətçilik təcrübəsi olan ölkələrdə belə bu cür demokratiya yoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev kursunu davam və inkişaf etdirərək, ölkəmizin bütün parametrlər üzrə Qafqazın ən inkişaf etmiş ölkəsinə çevrilməsini təmin etmişdir".

Rektor gənclərin əxlaq, davranış və geyim məsələlərinə də toxunub. O, hər bir tələbəni öz geyimi, davranışı, əxlaqı ilə nümunəvi olmağa çağırıb. Qarşıdan imtahan sessiyasının gəldiyini vurğulayan rektor biliyin yeganə meyar olacağını bəyan edərək, tələbələrə uğurlar arzulayıb.

***ZÜMRÜD***